*Uşaq hüquqları aylığına yekun vurulmuşdur*

# Uşaqların hüquqlarının müdafiəsi hər birimizin borcudur



Bu il Birləşmiş Millətlər Təşkilatının uşaq hüquqları sahəsində məcburi xarakter daşıyan ilk universal beynəlxalq müqaviləsi olan Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin 28 ili, həmin sənədin Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməsinin isə 25 ili tamam olur. 1989-cu ilin 20 noyabr tarixində qəbul edilmiş və iştirakçı dövlətlərin sayına görə BMT-nin ən çox ratifikasiya edilmiş konvensiyalarından olan bu sənədə demək olar ki, bütün dünya dövlətlərinin qoşulması faktı da özü-özlüyündə uşaq hüquqlarının qorunmasına dünya ictimaiyyətinin yüksək əhəmiyyət verməsinin bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə uşaqlara göstərilən diqqət və qayğı bu sahədə möhkəm hüquqi bazanın yaradılmasına real zəmin yaratmış və uşaq hüquqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında, onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və digər qanunvericilik aktlarında təsbit olunmuş uşaq hüquqlarına dövlətimiz tərəfindən təminat verilir, onların mənafeyi aidiyyəti dövlət qurumları tərəfindən müdafiə olunur.

Bu gün respublikamızın bilavasitə və dolayısı ilə insan hüquqları ilə bağlı olan çoxsaylı beynəlxalq hüquqi aktlara qoşulması ölkəmizdə uşaq hüquqlarının müdafiəsi istiqamətində mütərəqqi addımların atılmasına, köklü islahatların həyata keçirilməsinə geniş zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2009-cu ilin ölkəmizdə "Uşaq ili" elan olunması və müvafiq tədbirlər planının təsdiqlənərək aidiyyəti qurumlar tərəfindən icra olunması ölkəmizdə uşaqlara dövlət qayğısının gücləndirilməsində, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılmasında və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətində də uşaqların hüquqlarının müdafiəsi, təbliği, onların problemlərinin həll edilməsi xüsusi yer tutur.

Uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin yaxşılaşdırılması və onların daha effektiv müdafiəsinin təmin olunması məqsədilə Müvəkkilin təşəbbüsü ilə hər il olduğu kimi, bu il də BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr - 20 noyabr tarixlərində respublikamızda "Uşaq hüquqları aylığı" elan edilmişdir. Bu məqsədlə Aylıq çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, QHT və KİV-lərə, icmalara ünvanlanan müraciətlər əsasında müxtəlif tədbirlər, dəyirmi masalar, treninq-seminarlar keçirilmiş, orta ümumtəhsil məktəblərində, uşaq müəssisələrində maarifləndirmə tədbirləri, müsabiqələr, sərgilər təşkil olunmuşdur ki, bu da uşaqların hüquqlarının səmərəli təmininə və təbliğinə, həmçinin onların fəallığına və iştirakçılığına xidmət edir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda da əhalinin müxtəlif qruplarının, o cümlədən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı müddəalar təsbit olunmuş və uğurla həyata keçirilməkdədir.

Bu məqsədlə, Müvəkkilin, Aparatın, o cümlədən Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin əməkdaşlarının iştirakı ilə silsilə tədbirlər Bakı şəhərində və respublikanın rayonlarında davam etdirilmiş və mütəmadi olaraq yerli və mərkəzi KİV-lərə məlumat verilmişdir. Yerlərdə təşkil olunmuş tədbirlərdə uşaq hüquqlarına dair müxtəlif mövzularda məruzələr və çıxışlar edilmişdir. Eyni zamanda, Aparatın əməkdaşları məcburi köçkün uşaqların təhsil aldıqları məktəblərdə olmuş, onlarla görüşlər keçirmiş və uşaq hüquqları üzrə müzakirələr aparılmışdır.

Dövlət Bayrağı Günündə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edərək həmin rayonun icra hakimiyyətinin başçısı ilə birgə şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd orta məktəbində olmuş, müəllim, şagird və valideynlərlə, kənd sakinləri ilə görüşmüş və Azərbaycan ordusunun ötən il uğurlu əks həmləsi nəticəsində azad edilmiş strateji yüksəklik olan əfsanəvi Lələtəpədə Dövlət bayrağımızın dalğalanmasını, bunun ölkəmizin əhalisi arasında qələbə təntənəsi və el bayramı kimi qeyd olunmasını müşahidə etdiyimi qürurla söyləmiş, o hisslərlə yaşamağın çox böyük bir nemət olduğunu bildirmişəm.

Cocuq Mərcanlı kənd məktəbinin direktoruna uşaqların təhsil hüququnun həyata keçirilməsi, onların inkişafı, təlim-tərbiyəsi, vətənpərvərlik ruhunda yetişdirilməsi sahəsində göstərdiyi fəallığa görə sertifikat və Ombudsmanın xatirə medalı təqdim edilmişdir. Həmçinin, təsisat tərəfindən hazırlanaraq çap olunmuş uşaq hüquqlarına dair çoxsaylı kitablar, maarifləndirici vəsaitlər və plakatlar məktəb kitabxanasına və şagirdlərə hədiyyə olunmuşdur.

Aparatın əməkdaşları Aylıq çərçivəsində Bakı Dövlət Sosial-İqtisad Kollecində, Akademik Zərifə Əliyeva adına liseydə, Bakı şəhəri Səbail rayonu 91 saylı tam orta məktəbdə, Sabunçu rayonu Bilgəh qəsəbəsində yerləşən 11 nömrəli İnteqrasiya təlimli internat məktəbdə, 74 nömrəli tam orta məktəbdə, 81 nömrəli tam orta məktəbdə, E.Məhərrəmov adına 137 nömrəli tam orta məktəbdə, 12 saylı şəhər poliklinikasında, Nəsimi rayonu 23 saylı tam orta məktəbində, Qaradağ Gənclər Evində, Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş tədbirlərdə iştirak edərək mövzu üzrə çıxış etmişlər.

Gəncə Regional Mərkəzi tərəfindən Samux rayonu Kolayır qəsəbəsində fəaliyyət göstərən Sağlamlıq imkanları məhdud uşaqlar üçün İcma Əsaslı Sosial Reabilitasiya Mərkəzində, Gəncə Uşaq Evində, Gəncə şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyada, P.Hüseynov adına futbol təmayüllü internat tipli Gimnaziyada, 45 saylı Xüsusi Məktəbdə, Göygöl rayonu Gənclər Evində, Tovuz rayonu Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyada "Ombudsman təsisatı və uşaq hüquqları", "Hüquqlar hamımız üçün", "Mən və hüquqlarım", "Yetkinlik yaşına çatmayanlar arasında insan hüquqları və milli-mənəvi dəyərlərin təbliği" və s. mövzularda tədbirlər keçirilmişdir.

Şəki Regional Mərkəzi tərəfindən Şəki şəhər 21 saylı və Qoxmuq kənd tam orta məktəblərində, Aşağı Küngüt kəndində, Balakən rayon Mahamalar kəndində, Mingəçevir şəhərində, Qax rayonunun Turaclı kəndində, Zaqatala rayon Əlibayramlı kəndində, İnteqrasiya təlimli internat tipli gimnaziyada yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının nümayəndələrinin, sakinlərin, müəllim və şagirdlərin iştirakı ilə tədbirlər təşkil olunmuş, habelə Gənclər üçün Təhsil Mərkəzinin Ağcabədi rayonunda keçirdiyi "Qarabağ Regional Uşaq Forumu"nda iştirak edilmişdir.

Quba Regional Mərkəzi tərəfindən, Quba şəhər 2 və 4 nömrəli Qusar şəhər 6 nömrəli, Siyəzən şəhər 3 nömrəli, Xaçmaz şəhəri 8 nömrəli tam orta məktəblərdə, Siyəzən şəhər ümumi orta internat, Quba şəhər valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbində və rayonun Mərkəzi Kitabxanasının oxu zalında silsilə tədbirlər keçirilmişdir.

**Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

Cəlilabad Regional Mərkəzi tərəfindən Neftçala rayonu M.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziyada, Astara rayonu Artuba kənd tam orta məktəbində, Lerik rayonu Piran kənd tam orta məktəbində, V.İbrahimov adına İnteqrasiya təlimli internat tipli gimnaziyada, Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evində, Peşə liseyində, Mamusta və Girdəni kənd tam orta məktəblərində, Cəlilabad rayon Heydər Əliyev Mərkəzində, Mərkəzi Kitabxanada, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında, Cəlilabad Tibb Məktəbində, Cəlilabad şəhəri 1, 2, 4 və 8 saylı tam orta, Suluçeşmə kənd ümumi orta məktəblərində, Masallı Mərkəzi Kitabxanasında, habelə Yardımlı, Biləsuvar və Salyan rayonlarının bir sıra müəssisələrində tədbirlər təşkil olunmuşdur.

Regional mərkəzlərimiz tərəfindən keçirilmiş tədbirlər əsasən "Uşaq hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi", "Ombudsman təsisatı və uşaq hüquqları", "Hüquqlar hamımız üçün", "Mən və hüquqlarım", "Mənim hüquqlarım məni qoruyur", "Yetkinlik yaşına çatmayanlar arasında insan hüquqları və milli-mənəvi dəyərlərin təbliği" və s. bu kimi mövzuları əhatə etmişdir.

916 qaynar xətti ilə daxil olmuş uşaq hüquqları ilə bağlı müraciətlərə də hər zaman olduğu kimi dərhal baxılaraq diqqətlə araşdırılmış və tədbirlər görülmüşdür.

Ombudsmanın təşəbbüsü ilə yaradılmış və uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin (AUGSŞ) Liderlik Məktəbində Müvəkkilin, BMT-nin Uşaq Fondunun (UNİCEF) ölkəmizdəki nümayəndəliyinin rəhbər müavininin, Təhsil Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı şəhəri üzrə Təhsil İdarəsinin, Səbail Rayon İcra Hakimiyyətinin məsul nümayəndələrinin, adı çəkilən məktəbə cəlb olunmuş yeni üzvlərin, habelə əvvəlki buraxılışların məzunlarının, ümumən 150-dən artıq uşaq və gəncin, həmçinin valideyn və müəllimlərin iştirakı ilə on yeddinci tədris ilinin açılış mərasimi keçirilmişdir. Hər il olduğu kimi müntəzəm olaraq uşaqların iştirakı ilə Uşaq Hüquqları Konvensiyasının müddəalarına əsaslanan treninqlər, vətənpərvərlik ruhunda maarifləndirmə tədbirləri keçirilmiş, onların problemləri müzakirə olunmuş, Şəbəkədə dərnəklər yaradılmış, habelə üzvlərinin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə muzeylərə, tarixi yerlərə səfərlər təşkil edilmiş və bu iş bu gün də davam etdirilir.

Yeri gəlmişkən, uşaq hüquqlarının qorunması və təbliği məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Fondunun və UNİCEF-in birgə təşkilatçılığı ilə ölkəmizdə keçirilən Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumunda AUGSŞ-nin Liderlik Məktəbinin üzvləri də iştirak edir.

Müvəkkil və Aparatın əməkdaşları, o cümlədən Milli Preventiv Mexanizm qismində Milli Preventiv Qrupunun üzvləri Aylıq çərçivəsində Bakıda və regionlarda müxtəlif yaş qruplarından olan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi məqsədilə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında və 2 saylı İstintaq Təcridxanasında (saxlanılan yetkinlik yaşına çatmayan şəxslərlə), Uşaq Tərbiyə Müəssisəsində (məhkumlarla), uşaq evində, Sağlamlıq imkanları məhdud uşaqlar üçün İcma Əsaslı Sosial Reabilitasiya Mərkəzində, İnteqrasiya təlimli internat tipli gimnaziyalarda, ümumi orta internat, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəblərində, habelə uşaqların yaşadığı və saxlanıldığı digər müəssisələrdə başçəkmələr həyata keçirmiş, orada saxlanılan uşaqlarla görüşmüş, xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud və kimsəsiz uşaqları da yaddan çıxarmamış, onlara ünvanlanan müxtəlif məzmunlu tədbirlər həyata keçirilmişdir.

Daxili İşlər Nazirliyi tərəfindən aylıq çərçivəsində uşaq və gənclər təşkilatlarında, orta ümumtəhsil məktəblərində hüquqi maarifləndirmə tədbirlərinə diqqət artırılmış, bu məqsədlə keçirilən 175 görüş və yığıncaqlarda 8 mindən artıq yeniyetmə, habelə 150 pedaqoji işçi və 50 psixoloq iştirak etmiş, mərkəzi və yerli mətbuat orqanlarında, regional teleyayım şirkətlərində 20-dən artıq məqalə dərc olunmuş, verilişlər təşkil edilmiş, müxtəlif səpgidə, o cümlədən "Uşaq hüquqlarının müdafiəsində polisin rolu", "Zərərli vərdişlərə yox deyək", "Valideyn və uşaq münasibətlərində qanunvericilik" və s. mövzularda çıxış və məruzələr dinlənilmiş, uşaqları maraqlandıran sual-cavab viktorinaları, intellektual oyunlar təşkil olunmuşdur. Bununla yanaşı, ölkədə Yuvenal Ədliyyə sistemi islahatlarına uyğun olaraq Bakının Sabunçu rayonunda fəaliyyət göstərən "Uşaq hüquq klinikası" və "Uşaq və gənclərin sosial reabilitasiyası mərkəzi"ndə ötən dövrdə hüquqpozma törədən və buna məruz qalan 15 yeniyetmə ilə sosial bərpa və reabilitasiya tədbirləri həyata keçirilmiş, onlara zəruri köməkliklər göstərilmişdir.

Baş Prokurorluq tabeliyindəki bütün qurumlarında uşaq hüquqlarının qorunmasına dair mövzuların hər həftənin şənbə günləri keçirilən tədris məşğələlərində müzakirə edilməsini təmin etmiş, prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul edilən namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə Ədliyyə Akademiyasında keçirilən icbari təlimlərin, Elm-Tədris Mərkəzində prokurorluğun stajorları üçün təşkil olunan hazırlıq, habelə prokurorluq işçiləri üçün keçirilən ixtisasartırma kurslarının tədris-tematik planlarına uşaq hüquqlarına dair mövzular daxil edilərək, əməkdaşların diqqəti bu məsələnin əhəmiyyətinə yönəldilmişdir. Bundan əlavə, yeni prokurorluq işçiləri üçün "İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri" barədə təşkil olunmuş ixtisasartırma kursu çərçivəsində uşaq hüquqlarının müdafiəsi, yetkinlik yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi və ya inzibati xətaların onlara qarşı törədilməsi, uşaqların təlim-tərbiyəsi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən yerinə yetirilməməsi, işə götürən tərəfindən uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi məsələləri diqqət mərkəzində olmuşdur.

Ədliyyə Nazirliyi tərəfindən əhalinin həssas qruplarından olan uşaqların hüquqlarının müdafiəsi məsələləri daim diqqət mərkəzində saxlanılaraq müvafiq tədbirlər həyata keçirilmiş, tərbiyə müəssisəsində məhkumlarla informasiya məşğələlərində müxtəlif mövzularda maarifləndirici seminarlar, habelə Ədliyyə Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş idarəsi, Mədəniyyət və Turizm Nazirliyi ilə birgə 2017-ci il üçün təsdiq edilmiş tədbirlər planına əsasən məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, sağlamlıqlarının qorunması, mədəni səviyyələrinin yüksəldilməsi, kitaba olan bədii zövqlərinin və oxuculuq mədəniyyətinin yüksəldilməsi, eləcə də vətənpərvərlik ruhunun artırılması məqsədi ilə mədəni - kütləvi tədbirlər keçirilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən A.S.Makarenko adına Humanitar Fənlər Təmayüllü Respublika Gimnaziyasında uşaq hüquqlarına dair maarifləndirmə tədbiri keçirilmişdir. Bundan əlavə Milli Azərbaycan Tarixi Muzeyində ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində peşə təlimində olan gənclərin əl işlərindən ibarət "Duyğularımın rəngi" adlı sərgi, habelə Azərbaycan Memarlıq və İnşaat Universitetində həmin Fondun 1 saylı Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsindəki uşaqların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.

Təhsil Nazirliyinin tabeliyindəki ümumtəhsil müəssisələrində uşaq hüquqları mövzusunda təşkil olunmuş dəyirmi masa, treninq-seminar, müsabiqə, sərgi və digər maarifləndirici tədbirlərdə şagirdlərə ölkəmizdə hər il qeyd olunan "Uşaq hüquqları aylığı"nın məqsədi və əhəmiyyəti, Uşaq Hüquqları Konvensiyasının, habelə digər beynəlxalq və dövlətdaxili qanunvericilik aktlarının icrasının təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verilmişdir.

Səhiyyə Nazirliyinin respublikanın bütün şəhər və rayonlarında fəaliyyət göstərən uşaq tibb müəssisələri tərəfindən uşaq hüquqlarının müdafiəsi məqsədi ilə seminarlar və sanitar maarifləndirmə işləri aparılmış, təhsil müəssisələrində (uşaq bağçaları, məktəblər), internatlarda kütləvi tibbi müayinələr və sağlamlaşdırıcı tədbirlər keçirilmiş, uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikası işi gücləndirilmiş, sosial-məişət şəraiti qeyri-kafi olan uşaqların, eləcə də valideyn qayğısından məhrum olan uşaq əhalisinin, sağlamlıq inkanları məhdud uşaqların, qaçqın və məcburi köçkün ailələrin uşaqlarının tibbi yardıma olan ehtiyacı vaxtında aşkar edilmiş və bu istiqamətdə zəruri addımlar atılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi sistemindəki bir sıra müəssisələr, o cümlədən Azərbaycan Milli İncəsənət Muzeyində, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında, Azərbaycan Dövlət Kukla Teatrında, Bakı Xoreoqrafiya Akademiyasında, Bakı şəhər uşaq musiqi və incəsənət məktəblərində, regional mədəniyyət və turizm idarələrinin strukturuna daxil olan qurumlarda uşaq hüquqlarına dair dəyirmi masalar, söhbətlər, mühazirələr, "açıq dərs"lər, kitab sərgiləri, rəsm və inşa yazı müsabiqələri, habelə digər bu kimi tədbirlər keçirilmişdir.

İqtisadiyyat Nazirliyinin Antiinhisar Siyasəti və istehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehlakçıların maarifləndirilməsi məqsədilə Bakıda və respublikanın regionlarında "Azərbaycanda istehlakçı hüquqları qorunur" mövzusunda konfranslar, orta ixtisas və ali təhsil müəssisələrində "İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir" mövzusunda seminarlar keçirilir və tədbir iştirakçılarına Dövlət Xidməti tərəfindən hazırlanmış istehlakçı hüquqlarına dair maarifləndirici materiallar, o cümlədən "Uşaq yeməkləri alarkən diqqətli olun" adlı buklet paylanılır. Həmçinin gündəlik istehlakda geniş istifadə olunan uşaq yeməkləri, geyim və oyuncaqlarının istehlak xassələri barədə hazırlanan maarifləndirici məlumatlar müxtəlif kütləvi informasiya vasitələrində yayımlanır.

Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları tərəfindən respublikanın bütün regionlarında müxtəlif təhsil və təlim-tərbiyə müəssisələrində "Fövqəladə hallarla bağlı davranış qaydaları" adlı maarifləndirmə tədbirləri təşkil olunmuş, həmin tədbirlərdə bununla bağlı zəruri məlumatlar verilmişdir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən sosial məsuliyyət tədbiri kimi Heydər Əliyev Fondunun və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərindəki 1 saylı uşaq evinin balaca sakinləri üçün informasiya texnologiyalarının tədrisi üzrə kurslar təşkil olunmuş, Nazirliyin mütəxəssisləri tərəfindən kurslarda iştirak edən uşaqlara kompüterdə işləmək bacarığı, eləcə də zəruri ofis proqramları öyrədilmiş, uşaqlara sertifikatlar təqdim olunmuşdur. Kursların sonunda isə uşaqların hüquqlarını təbliğ edən mövzuda maarifləndirmə tədbiri keçirilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ətraf mühitin mühafizəsi sahəsində ölkə əhalisinin, o cümlədən uşaqların hüquqlarının təminatı, vətəndaş cəmiyyətinin maarifləndirilməsi istiqamətində bir sıra tədbirlər təşkil edilmiş, Nazirliyin təbliğat sahəsində fəaliyyət göstərən əməkdaşları tərəfindən respublikanın regionlarında müntəzəm olaraq təbliğat və maarifləndirmə işləri həyata keçirilmiş, Nazirliyin təcrübəli işçilərinin, departament rəhbərlərinin, ərazi ekologiya və təbii sərvətlər şöbələrinin məsul işçilərinin KİV-də məqalələri dərc edilmiş, televiziya və radioda ətraf mühitin mühafizəsi, yaşıllıqların salınması, ərazilərdə təmizlik və abadlıq işlərinin aparılmasının əhəmiyyəti barədə məktəblilər və uşaqlar arasında çıxışlar təşkil edilmişdir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlərin məskunlaşması məqsədilə salınmış qəsəbələrdə və digər məskunlaşma obyektlərində yerli icra hakimiyyəti orqanlarının, təhsil müəssisələrinin, məcburi köçkün icmalarının, valideynlərin və uşaqların iştirakı ilə tədbirlər keçirilmiş, iştirakçılara uşaqların hüquqları, problemləri və bu sahəyə dövlət qayğısı barədə müvafiq məlumatlar verilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Nəsimi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Bakı şəhər Nəsimi rayon T.Həsənov adına 23 nömrəli tam orta məktəbdə "Beynəlxalq hüquqlar çərçivəsində, qadın və məcburi köçkün uşaqların hüquqlarının müdafiəsi" mövzusunda tədbir keçirilmiş, Azərbaycan Uşaqlarının IV Forumuna seçilmiş bir qrup uşaqla Komitə sədrinin görüşü təşkil edilmiş, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının 7.4-cü bəndində nəzərdə tutulmuş Uşaq Məcəlləsinin layihəsi hazırlanmış və onun yaxın vaxtlarda ictimai müzakirəsi gözlənilir.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi rayon icra hakimiyyətləri, təhsil idarələri, idman və gənclər idarələri, digər aidiyyəti dövlət qurumları, eləcə də qeyri-hökumət təşkilatları ilə birgə təşkil etdikləri tədbirlərdə "Uşaqlar ailənin möhkəmliyi və xalqın gələcəyidir", "Milli-mənəvi dəyərlərimizdə uşaq hüquqları", "Dinimiz və uşaq hüquqları" və s. bu kimi mövzular istiqamətində məruzələr edilmiş söhbətlər aparılmışdır.

Dövlət Statistika Komitəsi uşaqların sağlamlığı, təhsili, sosial müdafiəsi sahələri də əhatə olunmaqla onlar haqqında demoqrafik və digər statistik məlumatların istehsalını və yayımını, uşaq hüquqları sahəsində mövcud problemlərin müəyyən edilməsinə, onların yaranma səbəblərinin araşdırılmasına və bu istiqamətdə dövlət siyasətinin formalaşdırılması üçün ictimaiyyətin uşaqlara dair çoxşaxəli statistik məlumatlarla təmin edilməsi məqsədilə hər il olduğu kimi 2017-ci ildə də Azərbaycan və ingilis dillərində "Azərbaycanda uşaqlar" adlı illik statistik məcmuə nəşr edilmiş və ölkə rəhbərliyinə, eləcə də digər istifadəçilərə göndərilmişdir.

Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzində Azərbaycan Respublikasında qaçqın statusu almış ailələrdən olan uşaqların və onların valideynlərinin iştirakı ilə keçirilmiş görüşdə əcnəbi uşaqların yerli şəraitə uyğunlaşdırılmaları, təhsilləri, sosial vəziyyətləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən uşaq və məktəblilərin iştirakı ilə Bakı şəhərində nitq və eşitmə məhdudiyyətli qızlar üçün İKT təlimləri, Qəbələ regional "ASAN xidmət" mərkəzində isə İKT qızlar üçün II Regional Konfrans keçirilmişdir.

Milli Televiziya və Radio Şurası tərəfindən verilmiş tövsiyələrə uyğun olaraq həm ümumrespublika, həm də regional televiziyalarda uşaqların tərbiyəsinə, tədrisinə və maarifləndirilməsinə yönəlmiş bir sıra verilişlər yayımlanır. Bundan əlavə regional televiziyalarda uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyəti barədə dəyirmi masa keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən müvafiq layihələr çərçivəsində "Uşaqlar arasında yol hərəkəti qaydalarının təbliğ edilməsi" mövzusunda tədbir keçirilmiş və 1000 ədəd maarifləndirici buklet paylanmışdır, bundan əlavə Qarabağ münaqişəsi zamanı itkin düşmüş və girov götürülmüş azərbaycanlı uşaqlar haqqında məlumatlar toplanılmış, uşaqların müəyyən hissəsinin valideynləri ilə söhbətlər aparılmış, reportajlar hazırlanmışdır.

Uşaq Hüquqları Aylığında həyata keçirilən tədbirlərin nəticələrini təhlil etdikdə uşaqların problemlərinin araşdırılaraq həll edildiyi, onların sağlamlıq vəziyyətinin yoxlanıldığı, geniş maarifləndirmə kampaniyasının, çoxsaylı müsabiqələrin keçirildiyi müəyyən edilmişdir. Həmin tədbirlər uşaqların dünya görüşlərinin genişlənməsinə, bilik və bacarıqlarının artırılmasına, hüquq və vəzifələri barədə dolğun məlumatlar əldə etmələrinə, vətənpərvərlik ruhunda tərbiyə olunmalarına, nəticə etibarı ilə layiqli vətəndaş kimi formalaşmalarına təkan vermişdir.

UNİCEF-lə əməkdaşlıqda Birgə İş Planına əsasən, Milli Preventiv Qrupun üzvləri və Müvəkkilin regional mərkəzlərinin əməkdaşları tərəfindən respublikanın regionlarında uşaq hüquqları sahəsində fəaliyyət göstərən məhkəmə, polis, təhsil, səhiyyə, yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün "Uşaq hüquqları sahəsində monitorinq bacarıqlarının artırılması" mövzusunda treninqlər davam etdirilmiş, həmçinin UNİCEF-in əməkdaşları ilə birgə dövlət uşaq müəssisələrinə baxışlar keçirilmiş, bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələləri, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyəti öyrənilmişdir.

Bununla yanaşı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə birgə ötən ildən başlayaraq Bakı, Sumqayıt, Gəncə, Goranboy, Mingəçevir və digər regionlarda məcburi köçkünlərin məişət zorakılığı, o cümlədən qadın və uşaqlara qarşı zorakılıqla mübarizə üzrə biliklərinin artırılması məqsədilə silsilə maarifləndirmə tədbirləri keçirilir.

Azərbaycan Ombudsman təsisatı Avropanın Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsində (ENOC) və Müvəkkilin təşəbbüsü ilə həmin Şəbəkə tərəfindən həyata keçirilən Avropa Gənc Məsləhətçilər Şəbəkəsi (ENYA) layihəsinə qatılaraq orada fəal təmsil olunur. Bu il də Müvəkkilin uşaq hüquqları üzrə ixtisaslaşmış müşaviri Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan AUGSŞ-nin iki üzvü ilə Fransanın Paris şəhərində ENOC tərəfindən təşkil olunan ENYA forumunda iştirak etmişdir.

Aparatın əməkdaşı layihənin həyata keçirilməsi ilə bağlı müzakirələrdə iştirak edərək, təsisatın uşaq hüquqlarının müdafiəsi sahəsində çoxsaylı fəaliyyəti və prioritetlərini qeyd etmiş, layihənin davam etdirilməsi ilə bağlı təklifləri iştirakçıların diqqətinə çatdırmışdır.

Artıq yekun vurulan Uşaq Hüquqları Aylığı ilə əlaqədar qeyd etmək istərdim ki, hər il olduğu kimi, bu il də 20 oktyabr - 20 noyabr tarixləri ərzində Ombudsman Aparatının, onun regional mərkəzlərinin, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları, QHT və KİV nümayəndələri tərəfindən həyata keçirilən tədbirlər hər kəs üçün əhəmiyyət kəsb edən ümumi bir məqsədə - uşaqların hüquqlarının və mənafelərinin qorunmasına, onların ən yaxşı maraqlarının təmin edilməsinə xidmət etmişdir.

Uşaqları qorumaq və onların hüquqlarını təmin etmək hər birimizin borcudur. Buna görə də hesab edirəm ki, bu gün bütün dövlət qurumları, vətəndaş cəmiyyəti institutları uşaqlar naminə və onların iştirakı ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirərək hər bir uşağa qayğı ilə yanaşılması, onların hüquqlarının etibarlı müdafiəsi naminə bütün imkanlarını səfərbər etməlidirlər.

**Elmira SÜLEYMANOVA,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).**